● **Vahid Məmmədli**

## Mən Sənin Ömrünə Bahar Gətirim

Mən sənin ömrünə bahar gətirim,
Buzların ərisin sellərə dönsün.
İsitsin sinəni isti nəfəsim,
Əlimdə tellərin güllərə dönsün
Mən sənin ömrünə bahar gətirim.

Sonra əllərini alım ovcuma
Xəfifcə üfürüm isinsin biraz
Gizli gülüş qonsun dodaqlarına,
Mən sənə can deyim, sən denən olmaz
Mən sənin ömrünə bahar gətirim.

Uzaq dur deməyə titrəsin sesin,
Ahı oğurlayım dodaqlarından.
Utanım, qızarım, tutulsun dilim,
Əllərim danışsın yanaqlarında,
Mən sənin ömrünə bahar gətirim.

Mən sənin ömrünə bahar gətirim
Dəli küləyimi, çəni qarşıla.
Qoy məftun eyləsin bu sevgi səni,
Qışa əlvida de, məni qarşıla,
Mən sənin ömrünə bahar gətirim.